AZAD AZƏRBAYCAN

# Şəhid Səməndər İsmayılzadə doğum günündə yad edilib

**25 avqust 2023-cü il tarixdə Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızdan biri Səməndər İsmayılzadənin doğum günü qeyd edilib.**

44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycan öz dədə-baba torpaqlarını mənfur düşməndən xilas etdi. Torpaqlarımızın işğaldan azad edilməsində Azərbaycanın vətənpərvər oğulları canlarından keçiblər.

Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızdan biri də Səməndər İsmayılzadədir. Səməndər Vahid oğlu İsmayılzadə 25 avqust 1990-cı ildə Yevlax şəhərində anadan olub. 1996-2007-si illərdə Yevlax şəhəri Səməd Vurğun adına 5 saylı orta məktəbdə təhsil almışdır. Sonradan diş texniki, mühafizəçi, anbardar vəzifələrində işləyib.







Səməndər hərbçi ailəsində doğulduğu üçün hərbi xidmətə həvəs etmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində ZTR-82 A komandiri kursunu bitirib. O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli və Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 9-da Füzuli rayon Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə həlak olub. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

**Şəhidin doğum günü ilə əlaqədar olaraq Qaradağ rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, digər idarə və müəssisə rəhbərləri və ailəsi ilə birlikdə şəhidin məzarı ziyarət olunub və məzarı üzərinə gül dəstələri qoyulub.**

Qaradağ rayon İcra Hakimiyyətinin başçısı şəhid ailəsinə başsağlığı verib və vətən üçün canından keçən övladların heç zaman unudulmayacağını bildirib. Bundan əlavə ölkə rəhbərliyinin şəhid ailələrinə daimi diqqət və qayğısının olduğunu və bunun davamlı olacağını ziyarət iştirakçılarının diqqətinə çatdırıb. Daha sonra şəhidin doğum günü ilə əlaqədar təşkil olunmuş tədbir keçirilib. Bundan əlavə, şəhid adına əbədiləşdirilmiş küçədə lövhələr və barelyef lövhəsi quraşdırılıb.

Şəhid ailəsi göstərilən diqqət və qayğıya görə, eləcə də şəhid adının daim uca tutulması üçün görülmüş işlər ilə əlaqədar Ali Baş Komandan cənab İlham Əliyevə dərin təşəkkürünü bildirib.

**Allah rəhmət eləsin!**

**Bilman İSAQ**